Tarix və onun problemləri, №4 2009

**L.A.ƏLIYEVA**
*tarix elmləri namizədi*

# AZƏRBAYCANIN ETNIK TARIXINƏ RIYAZI MODELLƏŞMƏ METODUNUN TƏTBIQ EDILMƏSINƏ CƏHD
## (II məqalə)

Etnik proseslər, mədəni-tarixi fenomen olan etnos cəmiyyətin sosial hadisəsi kimi müxtəlif metodlar vasitəsi ilə tədqiq edilir, ayrı-ayrı nəzəriyyələr bu fenomenin mahiyyətini açmağa yönəldilmişdir. Son dövrlərin diqqət mərkəzində olan problemlərdən biri L.N.Qumilyovun passionarlıq haqqında nəzəriyyəsinin riyazi modelləşmə metodu əsasında cəmiyyətdəki müxtəlif sosial proseslərə tətbiq edilməsidir. Bu məsələ ilə bağlı ölkəmizdə də eyni səpgidə tədqiqatlar aparılması məqsədə uyğundur. Bu sahədə edilən ilk cəhdin ardınca, burada tarixi prosesin daha dərin qatlarına ekskurs etməklə Azərbaycan ərazisində etnik prosesin kəsilməzliyi fikrini əsaslandırmağa çalışacağıq.

Biz problemlə bağlı birinci məqalədə biz L.N.Qumilyov nəzəriyyəsini Azərbaycan xalqının etnogenezinə tətbiq etmiş və alınan nəticəni əks etdirən təqribi qrafik əyrini verməyə çalışmışdıq.(1). Belə bir etnogenez əyrisini verməkdən ötrü, ilk növbədə, Azərbaycan xalqının yaranma çağını, passionar təkan anını müəyyən etmək üçün professor S.S.Əliyarlının Azərbaycan xalqının etnogenezi haqqında konsepsiyasına müraciət edilmişdi. O, xalqımızın yaranması zamanını haqlı olaraq islam faktoru ilə əlaqələndirir və yeni etnomədəni sistemin formalaşmasını islamın Azərbaycanda yayılması dövrünə aid edir.(2,186). Burada məqsəd daha da irəli gedərək Azərbaycan xalqının etnik sistem kimi formalaşmasından və passionar təkan anından öncə Azərbaycan ərazisində baş verən etnik prosesləri nəzərdən keçirmək və bu prosesin təqribi qrafik əyrisini verməkdir. Bunun üçün artıq Azərbaycan tarixçiliyinin etnik proseslər və etnogenezlə bağlı gəldiyi nəticələrdən istifadə edilir.

Burada qeyd etmək yerinə düşərdi ki, Azərbaycan xalqının soykökü ilə bağlı Azərbaycan tədqiqatçıları arasında mövcud olan fikir ayrılığına baxmayaraq onların, demək olar ki, hər biri xalqımızın Albaniya və Atropatena (Adurbadqan) ərazisində yaşayan etnosların konsolidasiyası nəticəsində yaranmasını göstərmişlər. Qafqaz albanları və atropatenlərin Azərbaycan türklərinin ədadları olması fikri dünya alimlərnin bir çoxu tərəfindən də qəbul edilir. Azərbaycan türkləri haqqında geniş və obyektiv bir əsər Odri Alştatın «Azerbaijani turks. Power and Idntity under Russian Rule» (3) monoqrafiyasıdır. Əsərin ilk bölümündə müəllif Azərbaycan tarixinə ümumi ekskurs edir və burada xalqımızın əcdadları olan albanlardan bəhs edir.

Azərbaycanlıların etnogenezinə ayrıca bir monoqrafiya həsr etmiş Q.Qeybullayev göstərir ki, xalqımızın və onun dilinin formalaşması prosesi e.ə.IV-III əsrlərdən başlayır və eramızın X-XI əsrlərinədək davam edir. Dana sonra yazır ki, şübhəsiz, bu dövrün öz mərhələləri olmuşdur, lakin onları konkret müəyyən etmək mümkün deyil. (4,380). Əvvəla etnosun formalaşması üçün belə uzun bir zaman kəsiyinin götürülməsi məntiqi ağıla sığan deyil. Təbii ki, o dövrün insanları dağınıq bir kütlə deyil, etnik sistem halında idilər. Yeni etnik sistem isə özündən əvvəlki etnosların dağılmış sisteminin növbəti dəfə yeni formada konsolidasiyası nəticəsində yaranır. Burada müəllifin qeyd etdiyi ilkin zaman nöqtəsinə diqqət yetirmək düzgün olardı. Əksər tədqiqatçılar məhz bu dövrdə, yəni e.ə.IV əsrdə cənubda atropaten, şimalda isə alban etnoslarının mövcudluğunu göstərmişlər. Onlardan S.Y.Qasımova yazır ki, e.ə.IV əsrin son rübündə Midiya-Atropatenanın əhalisi etnik baxımdan hələ rəngarəng idi. Lakin artıq e.ə.IV əs-

rin sonu-III əsrin əvvəllərində atropaten xalqının formalaşması üçün şərait yaranır.(5,29). Göstərilən dövrdə Azərbaycanın cənubunda etnik birliyin mövcudluğu İ.Əliyevin tədqiqatlarında da öz əksini tapmışdır. (6,30).

Paralel proseslər Azərbaycanın şimalında da getmişdir. K.Əliyevin gəldiyi qənaətə görə, antik qaynaqlar Albaniya əhalisindən bəhs edərkən ilk növbədə albanlardan danışır. Onlar digər tayfalarla müqayisədə çoxsaylı və daha əhəmiyyətli olmuşlar. Buna görə də, ölkə alban etnonimi ilə bağlı olaraq Albaniya adlanmışdır.(7,84). Albanlardan başqa ölkədə digər qruplar da yaşamışdır.

Beləliklə, təqribən e.ə. IV əsr bizim qrafik əyrinin başlanğıc nöqtəsi ola bilər. Hadisənin eradan əvvələ aid olmasını göstərmək üçün IV rəqəminin qarşısına "-" mənfi işarəsi qoyulmuşdur. Hər iki etnik vahid- alban və atroparenlilər ayri-ayrılıqda həmin nöqtədən irəliləməyə başlamışlar. Bu proses iki xətt- "A" və "B" xətləri vasitəsi ilə əks etdirilmişdir. Əyrilərin sonrakı yüksəlişini və eniş anını müəyyən etmək çox çətindir, belə ki, həmin dövrün siyasi, mədəni və ictimai hadisələrini bütünlüklə izləmək imkanımız yoxdur. Bu, təbii ki, zəruri olan məlumatları əldə etmək üçün ilkin qaynaqlardakı informasiyanın ya tam olmaması, ya da fraqmentar xarakter daşıması ilə əlaqədardır. Etiraf etməliyik ki, bu yalnız təqribi bir qrafik əyri alınmasına səbəb olacaqdır. Bununla belə, məhz nəzəriyyənin yaradıcısı L.N.Qumilyovun öz fikirləri obkurasiya anını müəyyən etməyə bizə imkan verir. (8). O, Adurbadqan və Albaniyanın da tərkibinə daxil olduğu Sasani imperiyasının mürəkkəb etnik sistemini araşdırır və göstərir ki, Şah Qubada (488-531) əcdadlarının ciddi-cəhdlə qoruduğu mürəkkəb etno-sosial sistem miras qalmışdı. Ərdəşirin üsyanından sonra qorunub saxlanmış üç əsil-nəcabətli parf nəsli Ermənistanda- Karenlər, Xorasanda- Surenlər və Qafqaz Albaniyasında- Mihranlar taxt-tacın dayağı idilər. Mobedlər- kahinlər və dabirlər- katiblər cəmiyyətin intelektual hissəsini təşkil edirdilər, azadlar süvaridə xidmət edirdilər. Dördüncü təbəqə isə torpağı becərməklə və maldarlıqla məşğul olmaqla vergi ödəyirdilər. Bu sistem daxilində çoxlu kiçik etnosların- deyləmlilərin, ərəblərin, sakların, yəhudilərin, albanların, iberlərin, ermənilərin, nestorian və monofizit xristian icmalarının, qnostiklərin və mitraistlərin mövcudluğu ilə mürəkkəbləşmişdi və daim passionarlığın xərclənməsini tələb edirdi. (8,59). Sasani imperiyasında obskurasiya fazasına keçidin səbəbi kimi L.N.Qumilyov həmçinin məzdəkilər hərəkatı və Sasani qoşununun I Xosrovun zamanında daimi orduya çevrilməsi kimi faktorları da göstərir. Belə ki, məzəkilər hərəkatı öz əleyhdarlarının kütləvi qətlləri ilə müşayiət olunduğu kimi, hərəkatın yatırılması da kütləvi insan tələfatı ilə nəticələnmişdi. Bu isə etnosun öz passionarlığını itirməsinə gətirib çıxaran mühüm bir faktordur. Məzdəkilər hərəkatının Adurbadqan ərazisində geniş vüsət almasını nəzərə alsaq bu hadisənin ölkəmizin cənubunda eyni təsirə malik olduğunu söyləmək olar. Ərəb istilası ərəfəsində Sasani imperiyası tərkibinə daxil olan Azərbaycan Bizans ilə İran arasında tez-tez baş verib bəzən on illərlə davam edən dağıdıcı müharibələr nəticəsində çox məhrumiyyətlərə qatlaşmışdı.(10,39). Təbii ki, bu da yuxarıda qeyd edilən nəticələrə gətirib çıxaran hadisələrdən biridir.

Beləliklə, biz təqribən VI əsrdə obskurasiya baş verməsi və daha sonra qrafik əyrinin enməyə başlamasını qeyd edə bilərik. Ərəb istilası ərəfəsində Azərbaycanın həm şimalında, həm də cənubunda etnik gərginlik son həddə çatır və sistem dağılır. Növbəti neqintropik təkanadək özünütənzimləmə və yeni şəraitə uyğunlaşma kimi faktorlar etnosu tam məhv olmaqdan qoruyub saxlayır.

Bunun ardınca xilafət dövründə yenidən mühüm proseslər başlayır. L.N.Qumilyov bu dövrdə bir çox xalqların passionar impuls alması qənaətinə gəlmişdi.(9). Vahid islam dininin yayılması Azərbaycanda yaxın yüz il içərisində ümumxalq davranışı yaratmışdı. Ölkə öz etnomədəni tarixinin yeni çağına keçmişdi.(2,186). Beləliklə, biz bu

əsasla yeni passionar təkan nöqtəsi kimi təqribən VIII əsri götürə bilərik. Təbii ki, bu nisbi xarakter daşıyır.Yeni etnos bir qədər sonra öz doğulmasını xürrəmilər hərəkatı kimi bir azadlıq mübarizəsində özünü birüzə verir. Daha sonra xilafətin dağılması nəticəsində müstəqil dövlətlərin yaranması da bu mülahizəyə əsas verir. Burada qrafik əyrinin sonrakı yüksəliş nöqtəsinin, obskurasiya və s. məsələləri yenidən izah etməyə lüzum görmürük, belə ki bu artıq ilk məqalədə öz əksini tapmışdır. (1).

Azərbaycan tarix elmində L.N.Qumilyovdan tam fərqli olan sovet dövrünün etnos haqqında nəzəriyyəsi hakim mövqeyə malikdir. Bu nəzəriyyəyə görə etnos öz inkişafında üç mərhələdən keçir. Birinci mərhələni ehtiva edən terminin Azərbaycan dilində qarşılığı olmadığından burada rus variantını işlətməyə məcburuq, belə ki, bu "narodnost" ifadəsidir.İkinci mərhələ xalq, üçüncü mərhələ isə millət termini ilə ifadə olunur. Hər bir mərhələ marksizm-leninizm nəzəriyyəsinə uyğun olaraq müəyyən ictimai-iqtisadi formasiya ilə əlaqədardır. Belə ki, "narodnost"- qədim xalq quldarlıq, xalq-feodalizm, millət- kapitalizm dövrünün məhsuludur. Bu yanlış nəzəriyyəni əsaslandırmağa çalışan tarixçilər öz əsərlərində göstərmişlər ki, Azərbaycanda kapitalist münasibətləri ilə paralel olaraq Azərbaycan milləti də formalaşmışdır. Hazırda bu fikir yeni nəşrlərdə də qalmaqdadır. Buna görə də, xarici tədqiqatçıların əsərlərində Azərbaycan xalqının XX əsrdə formalaşması fikri ilə qarşılaşdıqda təəccüblənməyə dəyməz. Təbii ki, Azərbaycan xalqı XX əsrdə yeni keyfiyyətlə tarix səhnəsinə çıxmışdır. Bu isə yeni iqtisadi münasibətlərlə yanaşı yenidən etnik proseslərin növbəti impuls nəticəsində etnik sistemin yaranmasına gətirib çıxarması ilə bağlıdır.

Həmin qrafik əyri təqribən belə ola bilər:




Bu qrafik əyri bir daha Azərbaycan ərazisində etnik proseslərin kəsilməzliyinn təsdiq edir və əyani nümayiş etdirir.

## ƏDƏBIYYAT

1.Əliyeva L.A. Azərbaycanın etnik tarixinə riyazi modelləşmə metodunun tətbiq edilməsinə cəhd. "Tarix və onun problemləri" №4, 2008
2.Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərədək). S.S.Əliyarlının redaktəsi ilə. Bakı, 1996
3.Audri Altstadt. The Azerbaijani Turks: Power and identity under Russian Rule. Stanford, 1992
4.Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Баку, 1991
5.Касумова С.Ю. Азербайджан в III- VII веках. Баку, 1992
6.Алиев И. Очерки истории Атропатены. Баку,1989
7.Алиев К. Античная Кавказская Албания. Баку,1992
8.Гумилев Л.Н. Тысячелетие вокруг Каспия. Баку, 1991
9.Гумилев Л.Н. Этногенез и биосфера Земли. - М., 1994
10.Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. 1989

**Л.А.АЛИЕВА**
***кандидат исторических наук***

## ПОПЫТКА ВНЕДРЕНИЯ МЕТОДА МАТЕМАТИЧЕСКОГО МОДЕЛИРОВАНИЯ В ЭТНИЧЕСКУЮ ИСТОРИЮ АЗЕРБАЙДЖАНА

**(II статья)**

В данной статье автор пытается внедрять метод математического моделирования, на основе которого лежит теория о пассионарности Л.Н.Гумилева в этническую историю Азербайджана. Дается графическое изображение этнического пассионарного напряжения на почве Азербайджана. В отличии от первой статье здесь даются графики кавказских албан и атропатенцев, которые являются предками азербайджанцев. Это еще раз доказывает непрерывность этнических процессов в Азербайджане.

**L.A.ALIYEVA**
***PHD in history***

## ATTEMPT OF INTRODUCTION OF THE METHOD OF MATHEMATICAL MODELING TO THE ETHNIC HISTORY OF AZERBAIJAN

**(II article)**

In given article the author tries to inculcate the method of mathematical modelling on the basis of the L.N.Gumilev's theory about passionarity in the ethnic history of Azerbaijan. The graphic representation of ethnic passionarity pressure on ground of Azerbaijan is given. Unlike the first article here are given schedules Caucasian albans and atropatenians which are ancestors of Azerbaijanis. It proves once again continuity of ethnic processes in Azerbaijan.

***Rəyçilər: dos.B.Ş.Şabıyev, t.e.d.İ.M.Məmmədov.***

***BDU Tarix fakültəsi Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının 06 oktyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №02).***